RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 112 (8705) ÇƏRŞƏNBƏ, 2 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Bu gün - 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Bu nurlu, gözəl gün münasibətilə bütün balaları səmimi-qəlbdən təbrik edirəm! Yer üzündəki hər bir uşağa möhkəm cansağlığı, sevgi, xoş günlər, qayğısız uşaqlıq və xoşbəxt həyat arzulayıram! Uca Tanrı uşaqları bütün qada-baladan qorusun!"

# Qarabağ sürətlə dirçəlir



### Prezidentin müəllifliyi ilə işğaldan azad edilmiş bütün ərazilərimiz ən yüksək səviyyədə bərpa olunacaq

İşğaldan azad olunmuş bütün ərazilərimizdə böyük qələbənin təntənəsi yaşanmaqdadır. Düşmən tapdağından xilas olunub rahat nəfəs alan torpaqlarımızda başlanan quruculuq işləri gündən-günə sürətlənir, yeni layihələrin icrasına başlanılır.

Azərbaycan dövləti bu əraziləri bərpa edir, ona ikinci həyat bəxş edir. Görünən odur ki, Qarabağa qayıdış proqramı ən qısa müddətdə icra olunacaq.

### Ermənipərəst dairələrin yeni reallıqları qəbul etməkdən başqa yolu yoxdur

Ötən ilin sentyabrına qədər Azərbaycanın yeganə ağrılı problemi ərazilərinin işğal altında olması idi. Amma xalqımız əmin idi və inanırdı ki, torpaqlarımız günlərin birində azad olunacaq və beləliklə, biz Qarabağa qayıdacağıq. Ümidlərimizi yaşadan və Qarabağa qayıdış inamını hər gün daha da artıran isə Prezident, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü qətiyyətli siyasət idi. İlham Əliyev hər zaman bəyan edirdi ki, torpaqlarımız işğaldan azad ediləcək, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq, Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcək. İlham Əliyev hər zaman böyük qətiyyətlə, əminliklə və inamla bəyan edirdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə ordumuz öz sözünü deyəcək. Və hər şey İlham Əliyevin dediyi kimi də oldu. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu öz sözünü dedi, Ermənistan güc yolu ilə torpaqlarımızdan qovuldu, ərazilərimizdə ikinci erməni dövləti yaratmaq kimi cəfəng xülyaya birdəfəlik son qoyuldu.

Torpaqlarımızı azad etməklə İlham Əliyev Azərbaycan xalqı qarşısında ən böyük və şərəfli missiyasını yerinə yetirdi.

Ardı 4-cü səh.

## İlham Əliyev Ağdamda dünyada tayı-bərabəri olmayan cənnətməkan qurur

### Bəxtiyar ƏLİYEV: "Cənab Prezidentin adı tariximizə qalib sərkərdə və möhtəşəm Azərbaycanın qurucusu kimi yazılır"

Ötən həftə ölkəmizin ictimai-siyasi həyatında daha bir tarixi hadisə yaşandı. Mayın 28-də - Respublika Günündə 27 ildən sonra düşmən tapdağından qurtulmuş Ağdam şəhərinin Baş Planı təsdiqləndi. Bu, işğaldan azad edilmiş ərazilərdə təsdiqlənən ilk Baş Plan idi.

Prezident İlham Əliyev Vətən müharibəsində şanlı qələbədən sonra Ağdama ikinci səfərində şəhərsalma prinsiplərinin müasir konsepsiyasına uyğun yeni, ən müasir Ağdamın qurulacağını bəyan etdi və modern şəhərin təməlini qoydu. Bu, təkcə ağdamlılara yox, bütün dünya azərbaycanlılarına böyük qürur, fəxarət hissi yaşatdı. Bu hadisə işğaldan azad edilmiş torpaqlarımızda tezliklə ən müasir şəhər və kəndlərin salınacağını, dünyaya tamamilə yeni tipli yaşayış məntəqələri modellərinin təqdim olunacağını deməyə bir daha əsas verdi.

Ardı 4-cü səh.

## BMT daha gözəl və dinc bir dünyanın qurulması istiqamətində Azərbaycanın dəstəyinə arxalanır

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Cənab Prezident, biz bu çətin vaxtlarda hər bir ölkənin dünyada insanların sağlamlığına verdiyi əhəmiyyətli töhfələri bir daha xatırlayırıq. COVID-19 pandemiyasına qalib gəlməyimiz üçün birgə işlədiyimiz bir vaxtda biz daha davamlı, dayanıqlı və ədalətli cəmiyyətlərin qurulması üçün hərtərəfli bərpa işlərini düzgün həyata keçirməliyik. Biz iqlim dəyişikliyi məsələsi ilə bağlı cəsarətli addımlar atmalı və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün səyləri daha da artırmalıyıq.

Sizin Respublika Gününü qeyd etdiyiniz bir vaxtda mən Birləşmiş Millətlər Təşkilatının daha da möhkəmləndirilməsi, hamı üçün



daha gözəl və dinc bir dünyanın qurulması istiqamətində ölkənizin dəstəyinə arxalanıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antonio QUTERREŞ,***
***BMT-nin Baş katibi***

## Şuşa dünyanın mədəniyyət incisinə çevrilir

### Əkib-becərək ki, qoruyaq

Bir il əvvəl kimsə desəydi ki, gələn il Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan olunacaq və Milli Məclis Şuşa şəhəri haqqında qanun qəbul edəcək, adama yuxu kimi gələrdi. İndi bu, yuxu deyil, reallıqdır - Milli Məclis "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsini üçüncü oxunuşda qəbul edib.

### Dövlət qoruğu

15 maddədən ibarət qanuna görə Şuşa şəhəri dövlət qoruğu olacaq. Yalnız bu deyil, Şuşanın ətrafına qanunla qorunma səddi çəkilir. Tarixboyu başı bəlalar çəkmiş Şuşa şəhəri tam müdafiəyə alınır - həm ordumuz, həm də qanunlarımız vasitəsilə.

Bu qanun Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edir.

Şuşa Azərbaycan şəhəri kimi bərpa edilir, yenidən qurulur, mühafizəsi təşkil edilir. Şuşa turizm və mədəniyyət şəhəri kimi yalnız azərbaycanlılara deyil, bütün dünyadan təşrif gətirən turistlərə də açıq olacaq. Bunun üçün tarixi şəhər ilk növbədə qorunmalıdır.

Şəhərin inzibati sərhədləri daxilində Şuşa Şəhər Dövlət Qoruğu yaradılır. Şuşa şəhərinin inzibati sərhədlərinə daxil olan bütün torpaqlar həmin qoruğun ərazisidir.

Ardı 4-cü səh.




## Dünyanın idman nəbzi Azərbaycanla döyünəcək



Bu günlərdə dünya idman ictimaiyyətinin diqqəti bir daha Azərbaycana yönələcək. İyun ayının 4-dən 6-dək Bakıda "Formula-1" yarışlarının Azərbaycan Qran-prisi keçiriləcək.

Növbəti günlərdə isə paytaxtımız futbol üzrə Avropa çempionatının qrup mərhələsinin 4 oyununa evsahibliyi edəcək. Beləliklə, respublikamız növbəti beynəlxalq əhəmiyyət və maraq kəsb edən idman hadisələri ərəfəsindədir.

### Beynəlxalq tədbirlər məkanı

"Formula-1" Azərbaycan Qran-prisinin başlandığı gündən futbol üzrə Avropa çempionatının Bakı Olimpiya Stadionunda keçiriləcək dörddəbir final mərhələsinin oyununa qədər Azərbaycan yenidən qapılarını idmansevələrin üzünə açacaq, şəhərdə idman əhvali-ruhiyyəsi yaşanacaqdır. Azərbaycan növbəti dəfə beynəlxalq idman yarışlarında mükəmməl evsahibliyi nümunəsini ortaya qoyacaq, dünya bir daha respublikamızın yüksəlişinin, xalqımızın qonaqpərvərliyinin, Bakının füsunkar gözəlliyinin şahidi olacaqdır.

Dünyanın izlədiyi hər bir idman yarışı həm də beynəlxalq tədbirdir. Azərbaycan isə cənab Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik siyasətin nəticəsi olaraq uzun illərdir ki, dünyada beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi unikal məkanlardan biri kimi tanınır. Respublikamız mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə bir mərkəz kimi dünya ictimaiyyətinin daim diqqət mərkəzindədir. Humanitar forum üzrə Bakı platformasına isə dünyanın dörd bir yanından elm adamları, siyasətçilər qoşulublar. Azərbaycanın regionun lider dövləti kimi statusunu artıran məqamlardan biri məhz beynəlxalq tədbirlər mərkəzinə çevrilməsidir.

Bütün bunlar həm də Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi müdrik siyasətin dünyanın beynəlxalq təşkilatları, güc mərkəzləri və böyük ölkələri tərəfindən ehtiramla qarşılanması və qəbul edilməsinin əyani təsdiqidir. Düzgün və düşünülmüş siyasət, beynəlxalq təşəbbüslərimiz bu gün ölkəmizi dünyada yalnız sabit və inkişaf edən ölkə deyil, həm də əməkdaşlıq məkanı kimi təqdim edir.

Ardı 5-ci səh.

## Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının qlobal səhiyyə sahəsində səylərini dəstəkləyir

Dünya bir ildən çoxdur ki, qlobal pandemiya ilə mübarizə aparır. Hər birimizin sağlamlığını təhdid edən bu təhlükəli virusun qarşısını tamamilə almaq, təəssüf ki, hələ də mümkün olmayıb.

Yeni növ koronavirusa yoluxanlar arasında hər gün bu xəstəlik səbəbilə həyatını itirən insanların sayı az deyil. COVID-19 Yer kürəsinin ümumi bəlasına çevrilib. Dünyanın əksər ölkələrində koronavirusdan xilas olmaq üçün çıxış yolları axlarılır.

Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının 2021-ci il mayın 24-dən 31-dək virtual şəkildə davam edən 74-cü sessiyası da bu vacib məsələyə həsr olunmuşdur. "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusunda keçirilən sessiyada Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesusun dəvəti əsasında mayın 31-də sessiyanın bağlanış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunmuşdur.

Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizənin əlaqələndirilməsi də daxil olmaqla, qlobal səhiyyə sahəsində idarəçiliklə bağlı aparıcı rolunu və səylərini dəstəklədiyini diqqətə çatdıran dövlət başçısı ölkəmizdə qlobal pandemiyanın davam etdiyi çətin günlərdə həyata keçirilən mühüm işlərdən danışıb. Bildirib ki, pandemiyanın ilk günlərindən Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilib.

Ardı 6-cı səh.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!
Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.
Bu il qeyd edilən Respublika Günü İkinci Qarabağ müharibəsində qazanılan önəmli Qələbədən və işğal altındakı ərazilərin azad edilməsindən sonra Azərbaycan xalqı üçün xüsusilə əlamətdardır.
Pakistan qardaş Azərbaycanın yanında olmasından qürur duyur və ölkənizin hər cür təcavüzə qarşı özünümüdafiə hüququnu dəstəkləməkdə davam edəcək.
Zati-aliləri, əminəm ki, mövcud olan yüksəksəviyyəli əlaqələrimizin bundan sonra daha da inkişaf etdirilməsi üçün Sizinlə yaxından əməkdaşlıq edəcəyik.
Bu xoş fürsətdən istifadə edərək Azərbaycanın beynəlxalq forumlarda Pakistana verdiyi dəstəyi yüksək qiymətləndirdiyimi bildirmək istəyirəm.
Cənab Prezident, Sizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına davamlı inkişaf və fıravanlıq diləyirəm.
Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

Cənab Prezident!
Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

Zati-aliləri!
Ölkənizin müstəqilliyinin 103-cü ildönümü - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.
Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Sauli NİİNİSTÖ,***
***Finlandiya Respublikasının Prezidenti***

Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizi və Azərbaycan xalqını İrlandiya xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırıram.
Qoy, gələcək günlər Azərbaycan xalqına sülh, əmin-amanlıq və səadət gətirsin.

***Maykl HİGGİNS,***
***İrlandiyanın Prezidenti***

Zati-aliləri!
Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi Moldova Respublikasının xalqı adından təbrik edirəm.
Bu əlamətdar gündə qeyd etmək istəyirəm ki, Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud xoş münasibətlər qarşılıqlı etimada və hörmətə əsaslanır.
Əminəm ki, müxtəlif sahələrdə Moldova-Azərbaycan dialoqu bundan sonra da dinamik inkişaf edəcək. Xalqlarımızın və dövlətlərimizin rifahı naminə ümumi səylərimizlə bu mühüm hədəfi reallaşdırmağa hazır olduğumuzu bir daha təsdiq etmək istəyirəm.
Zati-aliləri, Sizə olan yüksək ehtiramımı qəbul edin.
*Hörmətlə,*

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu!
Zati-aliləri.
Dost ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Bəhreyn Krallığının Hökuməti və xalqı adından, şəxsən öz adımdan Zati-alinizə səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.
Fürsətdən istifadə edərək Zati-alinizə ən səmimi və xoş arzularımı çatdırır, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza isə müdrik rəhbərliyiniz altında davamlı tərəqqi və firavanlıq diləyirəm.
*Dərin hörmət və ehtiramla,*

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuruq.
Bu xoş fürsətdən istifadə edərək Sizə xoşbəxtlik və möhkəm cansağlığı, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayırıq.

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

Zati-aliləri!
Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi, Azərbaycan Hökumətini və xalqını Maldiv Hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırıram.
Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına davamlı inkişaf və rifah arzulayıram.

***İbrahim Məhəmməd SOLİH,***
***Maldiv Respublikasının Prezidenti***

Zati-aliləri!
Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə ən xoş arzularımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.
Cənab Prezident, ölkələrimiz geniş bir regionda sülhü, təhlükəsizliyi, firavanlığı təşviq edən idealları və dəyərləri paylaşmaqda davam edir. Qoşulmama Hərəkatının sədri olaraq Sizin mahir idarəçiliyinizlə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli sıx əməkdaşlıq, dostluq münasibətləri davamlı olaraq inkişaf edir. İnanıram ki, yaxın gələcəkdə bu əməkdaşlıq iqtisadi cəhətdən vacib olan strateji tərəfdaşlıq sahələrində daha da güclənəcək.
Zati-aliləri, Sizə cansağlığı və xoşbəxtlik arzu edir, öz adımdan və Şri-Lanka xalqı adından böyük xalqınıza davamlı tərəqqi diləyirəm.

***Qotabaya RACAPAKSA,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

Cənab Prezident!
Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.
Sizə və dost Azərbaycan xalqına davamlı rifah və tərəqqi arzulayıram.
Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında səmimi dostluq və əməkdaşlıq əlaqələrini möhkəmləndirmək üçün Sizinlə işləməyə hazır olduğumu bir daha təsdiq edirəm.
*Dərin hörmətlə,*

***Məkki SALL,***
***Seneqal Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident!
Azərbaycanın milli bayramı - Respublika Günü mənə Burkina-Faso xalqı adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırmaq üçün gözəl imkan yaradır. Zati-aliləri, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına sülh, firavanlıq və davamlı tərəqqi arzulayıram.
Əmin olun ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün Sizinlə işləməyə daim hazıram.
Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.
*Hörmətlə,*

***Rok Mark Kristian KABORE,***
***Burkina-Fasonun Prezidenti***

Zati-aliləri!
Milli bayramınız - Respublika Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına Trinidad və Tobaqo Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.
Zati-aliləri, Sizə xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

***Paula-Mae UİKS,***
***Trinidad və Tobaqo Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı***

Hörmətli cənab Prezident!
Qırğızıstandakı "Azərbaycanın dostları klubu"nun üzvləri adından Sizi milli bayramınız - Respublika Günü münasibətilə təbrik edirəm.
1918-ci ildə Azərbaycan xalqı və onun ən yaxşı nümayəndələri müsəlman Şərqində ilk demokratik dövlət yaradılmasını elan etdilər, 1991-ci ildə Azərbaycanın yenidən müstəqillik əldə etməsi isə bu dövlətçilik ənənəsinin bərpası və onun inkişafında yeni tarixi mərhələ oldu.
Biz şadıq ki, bu gün Azərbaycan beynəlxalq nüfuzu durmadan artan, dinamik inkişaf edən müasir dövlətdir.
Keçən il Azərbaycan Ordusunun ölkənin ərazi bütövlüyünün bərpası, Qarabağın işğaldan azad edilməsi sahəsində qazandığı uğurlar sübut edir ki, bizə qardaş ölkənin öz müstəqilliyini qorumaq üçün bütün zəruri imkanları, o cümlədən güclü ordusu, sağlam iqtisadiyyatı, nüfuzlu və müdrik lideri, ən başlıcası bütün xalqın birliyi və həmrəyliyi var.
Qırğızlar və azərbaycanlılar ortaq köklərə, tarixən ortaq dilə və mədəniyyətə malik olan iki qardaş türk xalqıdır.
Bizim hədəflərimiz eynidir - ölkələrimizin əmin-amanlığı və firavanlığı, onların təhlükəsiz və davamlı inkişafı, həm ikitərəfli səviyyədə, həm də türk dünyasında inteqrasiya prosesləri kontekstində dostluğun, həmrəyliyin və əməkdaşlığın möhkəmlənməsi.
Qoy, bizim böyük əcdadlarımız Manas atanın və Dədə Qorqudun ruhları bu nəcib işdə xalqlarımıza dəstək olsun.
*Hörmətlə,*

***Kayrat OSMONALİYEV,***
***Qırğızıstandakı "Azərbaycanın dostları klubu"nun prezidenti, hüquq elmləri doktoru, professor***

# Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Pakistanda səfərdədir

Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti mayın 31-də Pakistan İslam Respublikasına səfərə gedib.
Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, paytaxt İslamabadın "Nur Xan" hava limanında Azərbaycanın nümayəndə heyətini Pakistan Senatının sədr müavini Məhəmməd Mirzə Afridi, Milli Assambleyanın üzvü, Millətlər Birliyi Qadın Parlamentarilərin sədri xanım Şahdana Gulzar Xan, ölkəmizin Pakistandakı səfiri Əli Əlizadə və digər rəsmi şəxslər qarşılayıblar.
İyunun 1-də nümayəndə heyətinin üzvləri İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransına qatılıblar.



# Milli Məclisin sədri Sahibə Qafarova İslamabadda İƏT PA-nın tədbirində çıxış edib




Xəbər verildiyi kimi, Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycanın parlament nümayəndə heyəti Pakistan İslam Respublikasında işgüzar və rəsmi səfərdədir.
Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iyunun 1-də Milli Məclisin sədri İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) İcraiyyə Şurasının iclasında iştirak edib.
Şurada qurumun Parlament Assambleyasının İkinci Ümumi Konfransında müzakirəyə çıxarılacaq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.
Tədbirdə Azərbaycan parlamentinin sədri Sahibə Qafarova çıxış edərək gündəlikdəki məsələlərə münasibət bildirib, İslam dünyasında qadınların rolu haqqında fikirlərini bölüşüb. O, dünyada islamofobiyanın geniş yayıldığı şəraitdə cəmiyyətdə qadınların rolunun daha da möhkəmlənməsinə ciddi ehtiyac duyulduğunu qeyd edib. Sahibə Qafarova təşkilatda qadın parlamentarilərin iclasının təşkil olunmasını yüksək dəyərləndirib.
Milli Məclisin sədri bildirib ki, Azərbaycan nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin inkişafına böyük önəm verir. O, bu yaxınlarda Milli Məclisin İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Nizamnaməsini ratifikasiya etdiyini xatırladıb. Milli Məclisin sədri təşkilata üzv ölkələrlə çoxşaxəli əməkdaşlığın dərinləşməsini günün tələbi kimi dəyərləndirib.
İclasda Parlament Assambleyasının İkinci Ümumi Konfransına qatılmış nümayəndə heyətlərinin rəhbərləri iştirak ediblər.

# Milli Məclisin sədri Pakistan televiziyasına müsahibə verib

İyunun 1-də Milli Məclisin sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransında iştirak edən KİV nümayəndələri ilə görüşüb, Pakistan televiziyasına müsahibə verib.
Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, jurnalistlərin suallarını cavablandıran Azərbaycan parlamentinin sədri tədbirin əhəmiyyətini qeyd edib. Belə mühüm tədbirə evsahibliyi etdiyinə görə Pakistan tərəfinə minnətdarlığını ifadə edən Sahibə Qafarova deyib ki, bu təşkilat çərçivəsində böyük imkanlar mövcuddur. O, Azərbaycanın Pakistan və Əfqanıstandan sonra İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası üzvlərinin toplaşacağı üçüncü ölkə olacağını da bildirib.



# Milli Məclisin sədri Sahibə Qafarova Qadın Parlamentarilərin iclasına sədrlik edib

İyunun 1-də İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İslamabadda təşkil olunan İkinci Ümumi Konfransı çərçivəsində Qadın Parlamentarilərin iclası keçirilib.
Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin sədri Sahibə Qafarova Qadın Parlamentarilərin iclasının ilk sessiyasına sədrlik edib.
İclası açan Milli Məclisin sədri İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının önəmindən danışıb, rəhbər vəzifələrdə olan qadınların əsas çağırış və imkanlarını müzakirə etmək üçün mühüm bir platforma təqdim etdiyinə görə Qadın Parlament Qrupuna xüsusi təşəkkürünü bildirib.
Sahibə Qafarova dünya miqyasında iqtisadi fəallığın azalmasına baxmayaraq, ölkələrimizin iqtisadi əməkdaşlığın inkişaf tendensiyalarını möhkəmləndirə biləcəklərinə inamını ifadə edib. Vurğulayıb ki, qadınların hüquqları və gender bərabərliyi kimi məsələlər hələ də gündəmdə qaldığı üçün bu tədbirin mövzusu həqiqətən mühüm əhəmiyyət kəsb edir.
Milli Məclisin sədri Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verən bir ölkəni təmsil etməsindən qürur duyduğunu diqqətə çatdırıb. Bildirib ki, bu, 1918-ci ildə əksər Avropa ölkələrindən xeyli əvvəl olub. Müsəlman Şərqində qızlar üçün ilk dünyəvi məktəb, ilk balet və opera da Azərbaycanda yaradılıb.
S.Qafarova qeyd edib ki, parlamentarilər, xüsusən də qadın millət vəkilləri arasında təmaslar parlamentlərarası əməkdaşlığın vacib hərəkətverici qüvvəsidir. İslam dövlətlərindən daha çox qadın millət vəkilinin müxtəlif parlament təşkilatlarında təmsil olunması vacibdir.
O, bugünkü müzakirələrin bütün bu mövzularda faydalı fikir mübadiləsi aparmağa imkan verəcəyinə inamını ifadə edib.
Qadın Parlamentarilərin iclasının ilk sessiyasında çıxış edən Qadın Parlament Qrupunun katibi xanım Munazu Hassan, Pakistan Milli Assambleyasının üzvü xanım Bequm Sadjida Zulfikar Xan, Pakistan Parlamentinin katibi, xarici işlər naziri xanım Andlib Abbas, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və başqaları rəhbər vəzifələrdə olan qadınların regional ticarətin, biznesin, sahibkarlığın inkişafında rolu, regional əməkdaşlığın gələcəyi və digər mövzularda fikirlərini açıqlayıblar.




İclasa yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd edib, Qadın Parlament Qrupuna uğurlar arzulayıb, səsləndirilən fikirlərlə bağlı gələcək görüşlərdə müzakirələr aparılacağını diqqətə çatdırıb.
İclasda Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı da iştirak edib.

# Milli Məclisin sədri İƏT PA-nın İkinci Ümumi Konfransında çıxış edib

İyunun 1-də Pakistanın paytaxtı İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) İkinci Ümumi Konfransının açılış mərasimi keçirilib.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin sədri Sahibə Qafarova mərasimdə çıxış edib.

Milli Məclisin sədri bildirib: "Biz bu gün çətin bir dövr yaşayırıq. Dünya birliyi terrorizm, mütəşəkkil cinayətkarlıq, insan və narkotik ticarəti, qaçqın və məcburi köçkün problemləri, yoxsulluq, iqlim dəyişikliyi, təbii fəlakətlər və epidemiyalar kimi ciddi təhdidlərlə qarşılaşır. COVID-19 problemi beynəlxalq ictimaiyyət üçün gözlənilməz bir sınaq idi və bəşəriyyət bu pandemiyaya qarşı mübarizədə bütün gücünü toplamalı oldu. Azərbaycan COVID-19-a qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Ötən il Azərbaycan Prezidenti Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşlərinin və BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi İclasının keçirilməsinin təşəbbüskarı olub. Bu təşəbbüslər bir daha Azərbaycanın beynəlxalq həmrəyliyə və əməkdaşlığa sadiqliyini nümayiş etdirir".

S.Qafarova qeyd edib ki, dünya ictimaiyyətinin üzləşdiyi çətinliklər artdıqca, onları həll etmək üçün daha təsirli və rasional yanaşmalar tapılmalıdır. Parlamentlər hərtərəfli əməkdaşlıq sayəsində bu baxımdan vacib rol oynayır və parlamentlər arasında əməkdaşlığın daha da dərinləşdirilməsinin bəşəriyyət üçün əhəmiyyəti artır.

Parlamentin sədri diqqətə çatdırıb ki, Azərbaycan Respublikası uğurlu regional inteqrasiya proseslərinin davamlı inkişafını təmin etmək və firavan cəmiyyətlər qurmaq üçün rasional bir yol olduğuna inanır. İnteqrasiya prosesləri millətlər arasında siyasi, iqtisadi, mədəni əlaqələrin dərinləşməsinə yol açır. O deyib: "Bu mənada, İqtisadi Əməkdaşlıq Təşkilatı geosiyasi baxımdan əhəmiyyətli bölgələrin ölkələrini bir yerə toplayır. Beləliklə, aramızdakı inteqrasiya proseslərinin gücləndirilməsi bu bölgələrin zəngin təbii ehtiyatlarının, nəqliyyat imkanlarının və intellektual potensialının daha səmərəli istifadəsinə kömək edəcək. İnteqrasiya, eyni zamanda, sülhü, sabitliyi, təhlükəsizliyi, dialoqu və tərəqqini gücləndirəcək və zamanın çağırışlarına ümumi yanaşmamızı formalaşdıracaq".

Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa həmişə böyük diqqət yetirib. Təxminən 3 ay əvvəl - martın 4-də Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə yaradılan İƏT Tədqiqat Mərkəzinin nizamnaməsi imzalanıb. Azərbaycan ölkəmizdə yerləşəcək mərkəzin səmərəli fəaliyyəti üçün əlindən gələni edəcək.

Ölkəmizin inteqrasiyanın, regional və qlobal layihələrin həyata keçirilməsində birgə səy göstərməyin tərəfdarı olduğunu diqqətə çatdıran Sahibə Qafarova qeyd edib ki, Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı ilə üz-üzə qalsa da, uğurlu regional layihələrin həyata keçirilməsinə nail olub, enerji təhlükəsizliyinin təmin edilməsində və enerjinin Avrasiya məkanına çatdırılma marşrutlarının şaxələndirilməsində mühüm tərəfdaşa çevrilib. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərini qeyd etmək yerinə düşər. 2020-ci il dekabrın 31-də istifadəyə verilən digər əhəmiyyətli layihə "Cənub qaz dəhlizi"dir. Uzunluğu 3500 kilometr olan və 7 ölkəni birləşdirən "Cənub qaz dəhlizi" dünyanın ən böyük enerji infrastruktur layihələrindən biridir. Belə böyük uğur ölkələr arasında nümunəvi inteqrasiyanın yaradılması sayəsində mümkün olub və Ermənistan öz işğalçılıq siyasəti ilə prosesi əngəllədiyi bir şəraitdə Azərbaycan bu inteqrasiyanı yaratmağı bacarıb.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, bu gün işğal artıq yoxdur. Keçən il Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına son qoymaq üçün hərbi-siyasi vasitələrdən istifadə edərək BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən və 30 il ərzində kağız üzərində qalan qətnamələrinin icrasını təmin etdi. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan torpaqlarını işğaldan tamamilə azad edərək ərazi bütövlüyünü bərpa etdi, Ermənistanı 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur etdi.

Sahibə Qafarova bildirib ki, qardaş Türkiyə müharibə dövründə Azərbaycana siyasi və mənəvi dəstək verən ilk ölkə olub. Həmçinin müharibənin ilk günlərində qardaş Pakistan və Əfqanıstan Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bildirərək Ermənistanı işğala son qoymağa çağırdılar. Milli Məclisin sədri bu dəstəklərinə görə onlara dərin minnətdarlığını ifadə edib, Azərbaycanın ədalətli müharibəsində bizə dəstək verən dövlətlərə Milli Məclis adından təşəkkürünü bildirib.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatı bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını açıq şəkildə əks etdirir. Ermənistan bölgədəki nəqliyyat kanallarının təhlükəsizliyini təmin etmək öhdəliyini yerinə yetirməlidir. Bu kontekstə Zəngəzurdan - tarixi Azərbaycan torpağından keçəcək və Azərbaycanın əsas ərazisini ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası, eləcə də Türkiyə ilə birləşdirəcək yeni birləşdirici dəhliz də daxildir. Bu, bölgədəki nəqliyyat sektoru üçün yeni imkanlar yaradacaq Zəngəzur dəhlizidir.

O, daha sonra diqqətə çatdırıb ki, Azərbaycan regional layihələrin iştirakçısı və təşəbbüskarıdır. Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizlərində iştirakı və bu təşəbbüslərə verdiyi töhfə sayəsində Azərbaycan Respublikası Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycan artıq daxili nəqliyyat infrastrukturunu Lazurit nəqliyyat dəhlizi ilə əlaqələndirib və indi Zəngəzur dəhlizini reallaşdıraraq çoxtərəfli əməkdaşlıq üçün daha geniş imkanlar yaradır.

Milli Məclisin sədri qeyd edib ki, Azərbaycan Ermənistan işğalından azad etdiyi ərazilərimizin bərpası üçün genişmiqyaslı proqramlara başlayıb. Bu sahədə hələ çox işlər görülməlidir. Təəssüf ki, erməni vandalları işğal etdikləri şəhər və kəndlərimizi, tariximizə və mədəniyyətimizə aid abidələri dağıdıb, milli sərvətlərimizi talan ediblər. Həmin ərazilərin infrastrukturu tamamilə məhv edilib. Bərpa işində bir çox ölkələrdən, əsasən bizə dost ölkələrdən olan şirkətlərin də iştirak etdiyini bildirən spiker İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin də orada iştirakının əhəmiyyətli olduğunu deyib.

Çıxışının sonunda Milli Məclisin sədri parlament diplomatiyasının regional əməkdaşlığın gücləndirilməsində əhəmiyyətli rolunu bir daha vurğulayaraq diqqətə çatdırıb ki, parlamentlər arasında sıx əlaqələrin yaradılması ölkələri bir-birinə daha da yaxınlaşdırır. Parlament diplomatiyası dövlətlərarası dialoqun və xalqlar arasında dialoqun demokratik forması, həmçinin təsirli bir əməkdaşlıq vasitəsi olduğunu sübut edib.

Milli Məclisin sədri İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının təqdim etdiyi dialoq formatının xalqlarımız və dövlətlərimiz arasında dostluq və əməkdaşlığın inkişafına töhfələrini verəcəyinə əminliyini ifadə edib, konfransın işinə uğurlar arzulayıb.

# Şəhid və qazi övladları daim diqqət mərkəzindədirlər

Milli Məclisin Gənclər və idman komitəsində 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə xüsusi karantin rejiminin şərtlərinə uyğun olaraq görüş keçirilib. Görüşdə şəhid ailələrinin övladları, habelə şəhid ailələri və qazilərlə işləyən media nümayəndələri iştirak ediblər.

Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev görüşü açaraq uşaqların layiqli vətəndaş kimi formalaşmasının onların valideynləri ilə yanaşı, hər bir insanın vəzifəsi olduğunu bildirib. O vurğulayıb ki, 1950-ci ildən qeyd olunmağa başlayan Uşaqların Beynəlxalq Müdafiəsi Günü sonradan ölkəmizdə də təşkil edilib. Azərbaycanda uşaq hüquqlarının qorunmasının, onların rifahının yüksəldilməsinin hər zaman prioritet olduğunu bildirən Milli Məclisin sədr müavini Prezident İlham Əliyevin sərəncamına əsasən 2009-cu ilin ölkəmizdə "Uşaq ili" elan edildiyini diqqətə çatdırıb, uşaqların qayğılarının həllinin hər zaman dövlət başçısının diqqət mərkəzində olduğunu bildirib.

Ümummilli Lider Heydər Əliyevin "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" şüarını rəhbər tutaraq uşaqların yetişməsinə xüsusi diqqət ayrılmasını, onların təhsil almalarına kömək göstərilməsinin və inkişaflarının dövlət tərəfindən xüsusi dəstəkləndiyini vurğulayan Adil Əliyev xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilmələrinin hər zaman diqqət mərkəzində saxlanıldığını bildirib.

Milli Məclis sədrinin müavini hər bir uşaq kimi, şəhid və qazi ailələrinin övladlarının da dövlətin xüsusi nəzarətində olduğunu, onların problemlərinin dərhal həlli istiqamətində bütün zəruri addımların atıldığını qeyd edib. Habelə şəhidlərimizin bizə əmanəti olan övladlarının qorunmasının, yetişdirilməsinin və təhsil almalarına köməyin göstərilməsinin hər birimizin vəzifəsi olduğunu diqqətə çatdırıb. Şəhid ailələrinin qayğılarının hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzində olduğunu bildirən Adil Əliyev bu ailələrin övladlarına dəstək göstərməyin hər kəsin vətəndaşlıq borcu olduğunu vurğulayıb.

Görüş iştirakçıları səmimi qəbula görə minnətdarlıqlarını bildirib. 10 yaşlı Zəhra İmanlı isə vətənpərvər şeirləri ilə çıxış edib. Media nümayəndələri şəhid və qazi ailələrinin övladlarının qayğılarının diqqət mərkəzində saxlanması istiqamətində atılacaq addımları bundan sonra da davam etdirəcəklərini bildiriblər.

Sonda iştirakçılara Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı və hədiyyələr təqdim edilib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasından daha 475 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 475 nəfər müalicə olunaraq sağalıb, 176 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 334 min 132 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 325 min 40 nəfər müalicə olunaraq sağalıb, 4921 nəfər vəfat edib. Aktiv xəstə sayı 4171 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 523 min 638 test aparılıb. Dünənki test sayı isə 9649-dur.




# Xarici işlər naziri Ceyhun Bayramov ilə Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında telefon danışığı olub

Mayın 31-də qarşı tərəfin təşəbbüsü əsasında Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər bölgədə mövcud olan cari vəziyyət, üçtərəfli bəyanatların icrası, habelə sərhəddə baş verən son gərginliklə bağlı fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov sərhəd məsələsi ilə bağlı gərginliyin aradan qaldırılmasının, bu xüsusda mövcud olan fikir ayrılıqlarının danışıqlar yolu ilə həllinin vacibliyini qeyd edib, Azərbaycan Respublikasının sərhədin delimitasiya və demarkasiyası üzrə müvafiq üçtərəfli komissiyanın yaradılması təklifini dəstəklədiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Azərbaycan ərazisində yolların minalanmasına yönəlmiş təxribat törədərkən saxlanılan 6 erməni hərbçisinə gəldikdə isə, Azərbaycanın azad olunmuş ərazilərdə Ermənistan tərəfindən basdırılmış və insan həyatı üçün birbaşa təhlükə törədən çoxsaylı minaların təmizlənməsi ilə məşğul olduğu bir vaxtda, Ermənistan tərəfinin bu kimi təxribatlara əl atmasının yolverilməz olduğu vurğulanıb.

Tərəflər, habelə regional təhlükəsizlik məsələlərini müzakirə ediblər.

# 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid övladları ilə görüş təşkil olunub

Təhsil Nazirliyi və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid övladları ilə görüş təşkil edib.



AZƏRTAC xəbər verir ki, "Biz Zəfərin övladlarıyıq" adlı tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şagirdləri təbrik edən təhsil naziri Emin Əmrullayev hər zaman dövlət səviyyəsində onlara göstərilən xüsusi diqqət və qayğıdan danışıb. Nazir uşaqların sağlam və firavan böyüməsinin, rifahının yüksəldilməsinin dövlət siyasətinin başlıca vəzifələrindən biri olduğunu qeyd edib. Təhsil naziri, həmçinin 44 günlük Vətən müharibəsi zamanı şəhid olan şagirdlərimizi xatırlayıb. Vətən müharibəsində qazanılan zəfərdə təhsil işçilərinin də rolunu vurğulayan Emin Əmrullayev şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edib, qazi və əsgərlərimizə cansağlığı arzulayıb.

Təhsil naziri diqqətə çatdırıb ki, bu səpkidə keçirilən görüşlər uşaqları maraqlandıran sualların cavablandırılması, onların öz fikirlərini sərbəst ifadə edə bilməsi baxımından təqdirəlayiqdir. Nazirlik gələcəkdə də ardıcıl olaraq belə görüşləri keçirməyi planlaşdırır. Tədbirdə iştirak edən şagirdlərdən əlavə, bölgələrdən olan 50-dən çox məktəbli görüşə onlayn qoşulub.

Sonra təhsil naziri şagirdlərə tövsiyələrini verib, onların suallarını cavablandırıb. Məktəblilərə hədiyyələr təqdim olunub.

Tədbirin sonunda şagirdlərin ifasında "Azərbaycanım" mahnısı səsləndirilib, xatirə şəkli çəkdirilib.

# Təhsil naziri bir sıra rayonların sakinlərini videobağlantı vasitəsilə qəbul edib

Mayın 31-də təhsil naziri Emin Əmrullayev Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayon sakinlərini videobağlantı vasitəsilə qəbul edib. Qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Videoqəbulda vətəndaşlar işə qəbul, müəllimlərin yerdəyişməsi, dərs saatlarının bölgüsü, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

# Azərbaycan və Türkiyə arasında hüquqi əlaqələr inkişaf edir

İyunun 1-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan nazir dostluq və qardaşlıq münasibətlərimizin Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi ilə uğurla inkişaf etdiyini, əlaqələrimizin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın müstəsna rolunu qeyd edib. Bildirib ki, dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan və Türkiyə qədər dünyada bir-birinə yaxın olan ikinci ölkə yoxdur. 44 günlük Vətən müharibəsində Türkiyə Prezidenti başda olmaqla türk xalqı Azərbaycanın yanında olaraq ilk gündən qardaş ölkənin bütün yüksəkvəzifəli rəsmi şəxsləri, o cümlədən ədliyyə naziri Abdulhamit Gül Azərbaycana mənəvi və siyasi dəstəyini ifadə ediblər.

Türkiyənin Baş prokuroru ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə edərək Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə bağlı təbrik edib. O, müharibə dövründə azərbaycanlı həmkarları ilə daim təmasda olduğunu və hadisələri yaxından izlədiyini söyləyib, Azərbaycanın zəfərindən çox şad olduğunu qeyd edib. Bildirib ki, Azərbaycanın sevinci bütün türk xalqının sevincidir.

Görüşdə zəngin müqavilə-hüquq bazasına söykənən əlaqələrin inkişafı, iki ölkənin məhkəmə, ədliyyə və prokurorluq orqanlarının ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığı və gələcək perspektivlər vurğulanıb, səfərin qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Eyni zamanda, məhkəmə-hüquq islahatları barədə fikir mübadiləsi aparılıb, Azərbaycanda hakimlərin şəffaf seçiminə toxunularaq onların tədrisində qardaş ölkənin dəstəyi və digər birgə tədbirlərin səmərəsi qeyd edilib. Bəkir Şahin ölkəsində də məhkəmə islahatlarının davam etdiyini bildirərək bu sahədə yaxşı təcrübələrin mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Nazir, həmçinin tədbirdə iştirak edən Türkiyənin ölkəmizdəki yeni səfiri Cahit Bağçını təyinatı münasibətilə təbrik edib, ona uğurlu fəaliyyət arzulayıb.

Qonaqlar nazirlikdə Azərbaycan ədliyyəsinin tarixinə və müasir inkişafına dair yeni eksponatlarla zənginləşdirilmiş muzeylə və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbəyə, həmçinin Azərbaycan-Türkiyə münasibətlərinə həsr edilmiş xüsusi stendlərlə tanış olublar.

# Ölkə ərazisində terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb

Ölkə ərazisində terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərksilah edilmiş üzvləri barəsində DTX-nin İstintaq Baş İdarəsində başlanmış cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.

Aparılmış istintaqla müəyyən edilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmışlar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Sadalanan faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç və digərlərinin, ümumilikdə 14 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunmalarına dair cinayət işinin istintaqı yekunlaşdırılaraq Azərbaycan Respublikası Baş Prokurorunun müavini tərəfindən təsdiq edilmiş ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilib.

Yuxarıda qeyd olunmuş silahlı birləşmənin üzvləri olan digər təqsirləndirilən şəxslər barəsində müvafiq cinayət işləri üzrə ibtidai istintaq yekunlaşdırılaraq, iş materialları ilə tanışetmə həyata keçirilir.



# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi





# İlham Əliyev Ağdamda dünyada tayı-bərabəri olmayan cənnətməkan qurur

## Bəxtiyar ƏLİYEV: "Cənab Prezidentin adı tariximizə qalib sərkərdə və möhtəşəm Azərbaycanın qurucusu kimi yazılır"

*Əvvəli 1-ci səh.*



### "İllər sonra həyatımın ən xoş gününü yaşadım"

Həmin mərasimin iştirakçısı Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev bu tarixi prosesə şahidlik etməsini böyük xoşbəxtlik kimi qiymətləndirdi. Düşmənin 27 ildə daşını daş üstündə qoymadığı Ağdamda böyümüş Bəxtiyar Əliyevin fikrincə, bundan sonra təqvimin 28 may tarixi həm Respublika Günü, həm də Ağdam şəhərinin yenidən qurulmasına başlanıldığı gün kimi ikiqat bayram təntənəsi ilə qeyd ediləcək: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məhz 28 mayda Ağdama səfəri həqiqətən də tarixi hadisə oldu. Çünki ilk dəfə idi ki, cənab Prezident işğaldan azad edilmiş Ağdam rayonuna və Ağdam şəhərinə onun yenidən qurulması ilə bağlı səfər edirdi.

Çox xoşbəxt bir gün yaşadım. Çünki işğaldan sonra ilk dəfə idi ki, Ağdam şəhərinə səfər edirdim. Həmin gün qədim Ağdam şəhərinin yerində yeni, möhtəşəm şəhərin təməlqoyma mərasimi keçirilirdi. Orada olarkən dayandığımız ərazini təxmini müəyyənləşdirdim. Bizim durduğumuz yer Füzuli küçəsi ilə ən uzun küçələrdən biri olan Süleyman Sani Axundov küçəsinin kəsişmə nöqtələrinə yaxın idi. İki böyük mütəfəkkirin adını daşıyan küçələrin kəsişməsində cənab Prezident Ağdam ictimaiyyəti ilə görüşdü və rayon haqqında təəssüratlarını bölüşdü. Cənab İlham Əliyev dedi ki, "mən söz vermişəm və artıq bunu icra edirəm - Qarabağı cənnətə döndərəcəm!"

Təməlqoyma mərasimində Ağdam şəhərinin Baş Planı Prezidentə təqdim olunanda dövlət başçısı qeyd etdi ki, ən müasir şəhərsalma prinsiplərinə uyğun olaraq yeni Ağdam qurulur.

Deputatın sözlərinə görə, İlham Əliyev 2003-cü ildə keçirilmiş prezident seçkilərindən sonra dövlət başçısı kimi rayonlara səfərləri çərçivəsində ilk olaraq məhz Ağdama gedib. Həmin səfər zamanı Prezident dövlətin məcburi köçkünlərə hər zaman diqqət və qayğı göstərdiyini, bundan sonra daha yaxşı imkanların yaradılacağını söyləyib: "Hələ o zaman Prezident deyirdi ki, böyük planlar var, tezliklə məcburi köçkünlər üçün yeni qəsəbələr tikiləcək, onların sosial şəraiti yaxşılaşdırılacaq. İşğaldan azad olunana qədər Prezident 9 dəfə Ağdama səfər edib və bütün səfərləri zamanı açılışını etdiyi, təməlini qoyduğu sosial-iqtisadi obyektlər dövlət başçısının rayona necə diqqət göstərdiyini bir daha təsdiqləyirdi. Ağdam azad olunana qədər dövlət başçısının fərman və sərəncamlarına əsasən işğal altında olmayan ərazilərdə 18 yeni tipli qəsəbə, İdman Olimpiya Kompleksi, Muğam Mərkəzi, 5 xəstəxana, Xalçaçılıq fabriki və çoxlu sayda müəssisələr tikilmişdi. Quzanlı kəndi bütün bu quruculuq işləri nəticəsində qəsəbə statusu almışdır".

Komitə sədrinin sözlərinə görə, bu təməlqoyma mərasimi üçün başqa bir vaxt da seçilə bilərdi. Amma Prezidentin də dediyi kimi, bu günün seçilməsinin çox böyük rəmzi mənası var idi. Məhz milli bayram - Respublika Günü Ağdama gəlməyimiz bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərdi: "Cənab İlham Əliyev vurğuladı ki, əgər güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü, müstəqil və sözün əsl mənasında müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Hər dövlətin buna gücü çatmaz".

Bəxtiyar Əliyev hesab edir ki, son 17 il ərzində Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətin məqsədi dayanıqlı inkişafı, müstəqil siyasəti möhkəmləndirmək və xalqın xoşbəxt gələcəyini tam təmin etmək olub. Bu gün dünya da şahidlik edir ki, Azərbaycan qısa zaman ərzində daha qüdrətli, sözünün sahibinə çevrilən dövlət olub. Ölkəmiz uzaqgörən liderinin yürütdüyü müstəqil siyasətlə dünyada ən etibarlı tərəfdaşa çevrilib.

Komitə sədri deyir ki, təməlqoyma mərasimində Prezidentin səmimi çıxışı, Ağdamın keçmişi və gələcəyi ilə bağlı fikirləri həqiqətən də lider qətiyyətinin təntənəsi kimi qiymətləndirilməlidir. Çünki bütün vədlərinə sadiq olan İlham Əliyev Qarabağın azadlığı ilə bağlı səsləndirdiyi fikirləri bu gün reallığa çevirir: "Təməlqoyma mərasimində cənab Prezident çox səmimi çıxış etdi və ilk Baş Planın təsdiqlənməsinin Ağdamla başlamasını xüsusi vurğuladı, rayonun keçmişi və gələcəyi haqqında danışdı. Prezident bir fikrini xüsusi olaraq xatırladı. Söylədi ki, işğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini uzaqdan seyr edərkən öz-özümə deyirdim ki, biz mütləq bu yerlərə qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpağımızdan qovacağıq və buna nail olduq. Bu səfər isə böyük qələbədən sonra Prezidentin Ağdama ikinci səfəri idi. Bu dəfə cənab İlham Əliyev uzaqdan seyr etdiyi dağıntılar üzərində ən müasir, dünyada bənzəri olmayacaq bir şəhərin təməlini qoymaq üçün Ağdama gəlmişdi".

### Ağdamda möcüzələr yaradılacaq

Bəxtiyar Əliyevin fikrincə, Ağdamda start verilən layihələr şəhərin və bölgənin gələcək iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Ağdam Azərbaycanın böyük sənaye, turizm şəhərlərindən biri olacaq.

Təməlqoyma mərasimində bildirildi ki, işğaldan əvvəl Ağdam şəhərinin əhalisi 36 min nəfər olub. Birləşdirilən kəndləri və əhalinin artımını da nəzərə alsaq, şəhər sakinlərinin sayı 50 mindən çoxdur. Prezidentin tapşırığına uyğun olaraq, şəhər 100 min nəfər əhali üçün planlaşdırılıb. Həmçinin Ağdam rayonunun kommunikasiya, yol, dəmir yolu xətləri və vacib olan meliorasiya işləri bir-biri ilə vəhdət təşkil etməlidir. Ona görə də rayonun işğaldan azad olunmuş 70 min 900 hektarlıq ərazisinin coğrafi, iqlim şəraiti nəzərə alınıb. Bunun əsasında 71 kəndi daha rahat, daha uyğun qurmaq üçün birinci mərhələdə 33 kənd layihələndirilib. Bəzi kəndlər birləşdiriləcək. Ondan sonrakı mərhələdə qalan kəndlər də tədricən bərpa ediləcək.

Layihə ilə tanış olan Bəxtiyar Əliyev deyir ki, vaxtilə Ağdam şəhərinin ərazisi 700-800 hektar idi. İndi iki dəfə böyüyərək 1750 hektar olacaq. Ərazi Qarqar çayından Xaçınçaya, eyni zamanda Bərdə-Tərtər istiqamətində daha da genişlənir. Yeni müasir yollar, ilk dəfə olaraq şəhərətrafı bağlar salınır. Ağdam şəhərinin özündə yeni infrastruktur qurulur. Şəhərin 70 faizi hündürmərtəbəli binalardan ibarət olacaq və əhalinin 70 faizini əhatə edəcək. Əhalinin 30 faizi fərdi evlərdə yaşayacaq. 1750 fərdi ev, 23 min mənzil tikiləcək. Şəhərdə böyük göl, 4 park salınacaq və 2 km uzunluğunda su kanalı çəkiləcək. Bu çay bəzi anlarda iti axacaq, bəzi anlarda zəif. İnsanlar 2 kilometrlik məsafədə qayıqlarla gəzə biləcəklər. Şəhər parklarının əhatə dairəsi elədir ki, insan evindən çıxarkən 400 metrdənbir istirahət məkanına çatacaq. Yeni şəlalələr qurulacaq. Şəhərin yüksək təpəlik hissəsində dağüstü park və konsert keçirmək üçün amfiteatr tikiləcək.

Komitə sədrinin sözlərinə görə, şəhərdə həmçinin innovasiyalar mərkəzi və Qarabağ Universiteti təsis ediləcək. Tamaşaçı tutumu 30 min nəfərdən çox olacaq stadion tikiləcək.

Şəhərdə dəmiryol vağzalı da inşa ediləcək. Bu, şəhərin şərqində tikiləcək. Vağzala gedən yollarda iri müəssisələr, bir-iki mərtəbəli ticarət obyektləri yaradılacaq ki, şəhərin içində böyük müəssisələr olmasın. Ağıllı və dayanıqlı sosial infrastruktur elə qurulub ki, burada məktəblər, sosial xidmətlər, tibb müəssisələri, parklar, şəhər meydanı - bunlar hamısı vəhdət təşkil edir və bir-birinin yaxınlığındadır.

Həmçinin atçılıq mərkəzi öz ərazisində bərpa ediləcək və orada Cıdır meydanı qurulacaq. Şəhərdə müasir tramvaylar hərəkət edəcək, yeni velosiped yolları salınacaq. Hansı ki bunları Avropanın ən müasir, inkişaf etmiş şəhərlərində görə bilərik.

Ağdamda məktəblər, uşaq bağçaları elə qurulacaq ki, insanlar heç bir nəqliyyat vasitəsindən istifadə etmədən həmin təhsil mərkəzlərinə gedə bilsinlər.

Ağdamın ətrafında isə meşə zolağı salınacaq, turistlər üçün kiçik mehmanxanalar tikiləcək ki, bütün bunlar minlərlə iş yerləri deməkdir. Eyni zamanda kiçik və orta sahibkarlıq üçün əlverişli imkanlar yaradılacaqdır.

Deputat deyir ki, şəhərin bütün kommunikasiya xətləri əvvəlcədən çəkiləcək və müasir tələblərə cavab verəcək. Prezidentin tapşırığına əsasən Ağdam da "yaşıl enerji" zonası elan ediləcək. Ağdam 23 faiz göstərici ilə dünyanın ən yaşıl şəhəri və ərazisinə görə Gəncədən sonra Azərbaycanın üçüncü böyük şəhəri olacaq. Şəhərdə yeni İşğal və Zəfər muzeyləri yaradılacaq. Həmçinin əvvəlki bəzi qədim binalar bərpa ediləcək. Yəni şəhərin bir hissəsi əvvəlki dövrü xatırladacaq.

### Ləyaqətimizin, haqq-ədalətin təntənəsi

Bəxtiyar Əliyev deyir ki, dövlət başçısı Ağdama səfərlərinin birində qətiyyətlə vurğulamışdı: "Ən böyük işlər Ağdam azad edildikdən sonra başlayacaq". Bu gün həmin fikirlər reallığa çevrilir və 2021-ci ildə Ağdam yenidən qurulmağa başlayır. Qafqazın Xirosiması adlandırılan Ağdam şəhərində ən müasir, modern tikinti-quruculuq işlərinə start verilir: "Prezident İlham Əliyev Ağdamda yeni-yeni obyektlərin təməlini qoymaqla müasir Azərbaycanın təməlini qoymuş oldu. Bu da onu göstərir ki, artıq Azərbaycanın intibah dövrü başlayır. Azərbaycan bundan sonra yalnız yüksələn xətlə inkişaf edəcək. Əgər viran qoyulmuş Ağdamın yerində dünyanın ən müasir şəhərlərindən biri tikiləcəksə, bu, Azərbaycanın gücü, intibahı və xalqın xoşbəxt gələcəyi deməkdir. Bütün bunları yaradan Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə 28 may 2021-ci il tarixdə dünyanın ən xoşbəxt insanı idi və bizlər də o sırada idik. Mən özüm də xoşbəxtəm ki, doğulduğum, boya-başa çatdığım Ağdamda cənab Prezidentin keçirdiyi təməlqoyma mərasimində iştirak etdim. Bu, bir şanlı tarixdir. Bu, ləyaqətimizin, haqq-ədalətin təntənəsi idi!"

Ağdamın Baş Planını təsdiq edən və Qarabağı yenidən cənnətməkana çevirmək üçün bütün imkanları səfərbər edən Prezident İlham Əliyevin siyasətini hər zaman dəstəklədiyini deyən parlamentin komitə sədri Qarabağı bizə qaytaran Ali Baş Komandanla qürur duyur və fəxr edir ki, bu gün məhz müasir Ağdam şəhərinin təməli qalib sərkərdə tərəfindən qoyulur. Vaxtilə Azərbaycanın görkəmli şəxsiyyətlərinin təməlini qoyduğu qədim tarixi şəhəri düşmən xarabalığa çevirsə də, bu gün yeni Ağdamın adı İlham Əliyevin adı ilə bağlı olacaq və bu da fəxrdir: "Birmənalı şəkildə deyə bilərik ki, cənab İlham Əliyevin adı tariximizə təkcə qalib sərkərdə kimi deyil, eyni zamanda yeni, möhtəşəm Azərbaycanın qurucusu kimi yazılır".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qarabağ sürətlə dirçəlir

*Əvvəli 1-ci səh.*

Vətən müharibəsindəki Qələbə ilə İlham Əliyev həm də növbəti, eyni zamanda tarixi vədinə sadiq oldu. Artıq Dağlıq Qarabağ münaqişəsi deyilən bir anlayış yoxdur. Müharibədən sonra Ermənistanın məğlubiyyətini həzm edə, Azərbaycanın qələbəsi ilə razılaşa bilməyən bəzi dövlətlərin, siyasi mərkəzlərin fikirləri, mövqeləri isə bizim üçün əhəmiyyətsizdir. Prezident İlham Əliyevin Ağdamda dediyi kimi: "İndi bəzi ermənipərəst ölkələr, dairələr hansısa açıqlamalar verirlər. Versinlər, onların öz işidir. Avropa Parlamenti növbəti dəfə saxta faktlar əsasında qətnamə qəbul edib. Mən heç ona fikir vermirəm. Sizə də məsləhət görmürəm, Azərbaycan xalqına da məsləhət görmürəm. Bunlar hamısı əhəmiyyətsiz şeylərdir. Əhəmiyyətli məsələ odur ki, bax, biz bu gün buradayıq, burada oturmuşuq, burada durmuşuq və əbədi burada yaşayacağıq. Qırx dörd günlük müharibə və müharibədən sonrakı dövr, - altı ay artıq keçibdir, - bir daha göstərdi ki, kim kimdir, kim nəyə qadirdir".

Erməniпərəst dairələrin Azərbaycanın qələbəsini, regionda yaranmış yeni reallıqları qəbul etməkdən başqa yolları yoxdur. Bu reallığın müəllifi isə Prezident İlham Əliyevdir. İlham Əliyev işğalçı Ermənistanı və dünya erməniliyini cəzalandırdı, onlara öz yerlərini göstərdi. Yaxın vaxtlarda isə Zəngəzur dəhlizinin açılması ilə erməni təəssübkeşləri bir daha Azərbaycanın qalib dövlət kimi qüdrətli mövqeyinin şahidi olacaqlar.

### İşğaldan azad olunmuş yaşayış məntəqələrinin bərpasına başlanılıb

Artıq Qarabağ münaqişəsinə son qoyulub. Bu mənada əgər ötən ilin sentyabr ayına qədər dövlətimizin ən əsas məqsədi torpaqlarımızın işğaldan azad olunması idisə, indi milli prioritet işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və bərpasıdır.

Qarabağın dirçəlişi istiqamətində həyata keçirilən tədbirlər isə kifayət qədər çoxşaxəlidir. Bu tədbirlərə hələ müharibənin davam etdiyi günlərdən başlanılıb. Məlum olduğu kimi, Suqovuşana yeni yolun çəkilişinə başlananda Azərbaycan Ordusunun hücum əməliyyatları davam edirdi.

Hazırda bütün azad olunmuş torpaqlarda genişmiqyaslı tikinti-quraşdırma işləri, xüsusilə yol, dəmiryol infrastrukturlarının, o cümlədən hava limanının tikintisi davam edir. Qarabağda inşa olunan yeni yollar bölgənin yenidən qurulması istiqamətində atılan addımların tərkib hissəsi olmaqla yanaşı, həm də Zəngəzur dəhlizinin yaradılmasına xidmət edir.

İşğaldan azad olunmuş rayonlarda artıq yaşayış yerlərinin bərpasına başlanılıb. Aprel ayında Prezident İlham Əliyev tərəfindən Zəngilan rayonunun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Bu səfər zamanı həm də Ağdamda azad edilmiş torpaqlarda quruculuq və bərpanın ilk baş planı təsdiq olunub.

Şuşa şəhərində də geniş bərpa işlərinə start verilib. İşğalçıların dağıtdıqları, erməniləşdirilməsinə cəhd göstərdikləri bütün mədəni-mənəvi və tarixi abidələrimiz bərpa olunur.

Prezident İlham Əliyevin mayın 28-də - Respublika Günündə Ağdam rayonuna səfəri də işğaldan azad edilmiş rayonların bərpasına xidmət edən yeni layihələrə start verilməsi baxımından olduqca əlamətdar idi. Dövlət başçısının iştirakı ilə təməli qoyulan Bərdə-Ağdam avtomobil yolu Qarabağa qayıdışa, azad edilmiş ərazilərin dirçəlişinə xidmət edən mühüm layihədir. Ağdamda həm də işğaldan azad edilmiş ərazilər üzrə ilk Baş Plan təsdiq olundu. "Bu gün azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənir. İndi Şuşa şəhərinin Baş Planı hazırlanır, artıq bir müddətdən sonra təsdiqlənəcək. Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin baş planları üzrə iş gedir".

Prezident İlham Əliyevin iştirakı ilə Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, 1 saylı məktəbin təməli qoyuldu. Yaxın gələcəkdə isə azad edilmiş digər rayon mərkəzlərinin yenidən qurulması prosesinə start veriləcək. Ermənilərin dağıtdığı bütün yaşayış məntəqələrinin hamısı yenidən inşa olunacaq.

Beləliklə, İlham Əliyev Qarabağa yeni həyat bəxş edir. Prezidentin müəllifliyi ilə Qarabağ sürətlə dirçəlir. Tezliklə işğaldan azad edilmiş bütün ərazilərimiz ən yüksək səviyyədə yenidən qurulacaq. Bunu görülən işlər təsdiqləyir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şuşa dünyanın mədəniyyət incisinə çevrilir




## Əkib-becərək ki, qoruyaq

*Əvvəli 1-ci səh.*

Qanun şəhərin bərpa olunması, yenidən qurulması ilə yanaşı, Şuşanın mədəni irsinin tədqiqini də özündə ehtiva edir. Həmçinin şəhərin yenidən qurulması ilə iş bitmir, onun inkişafı üçün də tədbirlər görülməsi qanunda əksini tapıb. Bunlardan sonra Şuşa şəhərinin təbliği istiqamətində növbəti addımların atılacağı nəzərdə tutulub.

Bunlar Şuşa şəhərində dövlət siyasətinin əsas istiqamətləridir. Şuşanın bərpa olunacaq tarixi və mədəniyyət abidələri, bəzi obyektləri toxunulmazlıq statusunda olacaq. Bu o demək deyil ki, onlardan Şuşa əhli istifadə etməyəcək, istifadə olunacaq, yalnız məqsədyönlü şəkildə.

### Heç bir fəaliyyət növü şəhərin tarixiliyinə və ruhuna xələl gətirməməlidir

Şəhər həyatında, bütün sahələrdə innovativ həllərdən istifadəyə şərait yaradılacaq. Qanunda Şuşa şəhərinin tarixi, mədəni, turizm və istirahət potensialından tam yararlanmaq üçün əlverişli şəraitin yaradılması da nəzərdə tutulub. Sahibkarlar fəaliyyətlərini bu yöndə qurmalıdırlar, amma Şuşanın tarixiliyini, ruhunu pozmamaq şərtilə. Məsələn, Şuşa şəhərinin ərazisində elmi-tədqiqat, ənənəvi sənətkarlıq və digər məşğuliyyət növlərinin inkişaf və nümayiş etdirilməsi üçün tədbirlər görülməlidir. Mədəniyyət paytaxtı kimi fəaliyyətini və xidmətlərini artırmaq nəzərdə tutulub. Bura beynəlxalq mədəni əlaqələri inkişaf etdirmək, şəhərin dünya tarixi-mədəni irsinin incilərindən biri kimi nüfuzunu qaldırmaq yönündə işlər də daxildir. Qanunla Şuşa şəhərinin ərazisində onun tarixi, mədəni, elmi, estetik dəyərlərinə xələl gətirən, abidələrə və ya təbii landşafta, ekoloji mühitə təhlükə yarada bilən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq qadağandır.

Bütün Azərbaycan ərazisində olduğu kimi, Şuşa şəhərinin də nizamı hüquqla tənzimlənir. O cümlədən şəhərdə turizm fəaliyyəti, yerli və beynəlxalq tədbirlərin keçirilməsi, reklam işi və sair.

Bütün bunların həyata keçirilməsi zamanı və ümumiyyətlə, şəhərdə abidələrin tarixi-memarlıq və bədii-estetik görkəminin dəyişdirilməsi, abidələrin uçurulması və ya onlar üçün təhlükə yarada biləcək hər hansı fəaliyyətin həyata keçirilməsi qanunla qadağandır.

Müəyyən edilmiş qurumun icazəsi olmadan Şuşada abidələrin öyrənilməsi və arxeoloji qazıntıların aparılması yolverilməzdi. Bunlar hər zaman nəzarətdə saxlanılacaq. Bu işlərin gedişində aşkar edilən arxeoloji materiallar dövlət mülkiyyəti hesab olunur.

Şuşa şəhərinin ərazisində "Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə icazə yoxdur. Şuşadakı abidələri dövlətin icazəsi olmadan kimsə rekonstruksiya edə bilməz. Bunu yalnız dövlət qurumu müəyyən edə bilər.

### Reklamda müəyyən qadağalar olacaq

Şuşada ekoloji mühitin saxlanılması ilə bağlı müddəalar da qanunda yer alıb. Şəhərdə tikinti aparılması onun baş planına və memarlıq üslubuna uyğun həyata keçiriləcək.

Şuşa həm də turizm obyektidir. Şəhərin ərazisində abidələrə xələl gətirmədən turizm (rekreasiya) infrastrukturunun yaradılması təmin edilir. Şəhərdə maddi və qeyri-maddi mədəni irsin qorunmasına və təbliğinə dair məlumat mərkəzləri qanunla yaradılacaq.

Şəhərdə reklam fəaliyyətinə müəyyən qadağalar var. Məsələn, abidələrin üstündə, onların mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağandır. Burada əsas üstünlük onun mədəniyyət paytaxtı kimi təşviq edilməsinə aid reklamların yerləşdirilməsinə veriləcək.

### Şəhərdə ekoloji təmiz nəqliyyat işləyəcək

Şuşada yalnız ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadə etməyə üstünlük verilir. Əgər hər hansı nəqliyyat vasitəsi şəhərin abidələr olan hissəsində onlara təhlükə yaradarsa, istifadəsi qadağan edilə bilər.

Qanun Milli Məclisdə qəbul edilib. Qanunda əksini tapan müddəalardan hər hansı birinin pozulmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar.

İşğaldan azad etmək işin başlanğıcıdır, əsas işlər qarşıdadır. Dədə Qorqud demişkən: "torpağı qorumasan əkib-becərməyə, əkib-becərməsən qorumağa dəyməz".

Qanunlarımızı özümüz pozmayaq ki, qonşular və kənardan gələnlər də buna cəsarət etməsinlər. Evimiz yalnız yaşadığımız ev deyil, həm də o evin yerləşdiyi ərazi, o ərazinin olduğu ölkədir. Azərbaycan evimizdir, onu həm qanunun gücü ilə, həm də mənəvi məsuliyyətlə qoruyaq ki, çiyinlərimizdən gələcək nəsillərə ötürdüyümüz Vətən bütöv olsun.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***




# Dünyanın idman nəbzi Azərbaycanla döyünəcək

Əvvəli 1-ci səh.



## Azərbaycan həmişə nümunəvi evsahibliyi ilə fərqlənib

Hazırda respublikamız mühüm beynəlxalq siyasi, iqtisadi, mədəni-humanitar və idman tədbirlərinin keçirildiyi əsas mərkəzlərdən biridir. Bu baxımdan Azərbaycan ilk dəfə deyil ki, beynəlxalq maraq kəsb edən, bütün dünyada idmansevərlərin izlədiyi mötəbər idman yarışlarına evsahibliyi edir. Xüsusən son onillikdə Bakıda və Azərbaycanın regionlarında ən nüfuzlu dünya və Avropa yarışları təşkil olunub.

Vaxtilə Milli Olimpiya Komitəsinin Beynəlxalq Əlaqələr İdarəsinin rəhbəri kimi Azərbaycan nümayəndə heyəti ilə xarici ölkələrə səfərlərimiz, eyni zamanda Bakıda keçirdiyimiz görüşlər zamanı beynəlxalq idman təşkilatlarının rəhbərləri yarışlarda nümunəvi təşkilatçılığa görə respublikamıza heyranlıqlarını bildirir, razılıqlarını ifadə edirdilər. Yadımdadır, illər əvvəl Bakı şəhərinin Olimpiya oyunlarına evsahibliyi ilə bağlı müzakirələr aparılanda Avropa və beynəlxalq olimpiya komitələrinin rəhbərləri Azərbaycanın beynəlxalq olimpiya hərəkatında çox fəal iştirakını və bu hərəkata verdiyi töhfələri qeyd etmiş, ölkəmizdə idman sahəsində gedən quruculuq işlərinin çox geniş vüsət almasını, Bakıda böyük idman tədbirlərinin keçirilməsi üçün infrastrukturun yaradılmasını yüksək dəyərləndirmişdilər. 2011-ci ilin noyabr ayında mənə göstərilən böyük etimad nəticəsində "Bakı 2020" layihəsinin icraçı direktoru təyin olunaraq, dövlətimiz üçün ən böyük və mötəbər idman layihələrindən biri olan "Bakı 2020" layihəsi çərçivəsində Azərbaycanın namizədlik prosesinə rəhbərlik etməyə başlamışdım. Həmin ərəfədə Bakıda dünyanın ən yaxşı idman icraçılarından sayılan avstraliyalı Bob Elfinstonla görüş keçirmişdik. Bob Elfinston Bakının gözəlliyi qarşısında heyran qaldığını bildirərək demişdi: "Bakı dünyanın ən böyük sirlərini özündə gizlədən və kəşflər üçün ən real məkan olan şəhərdir".

## Tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarının təşkili Azərbaycana həvalə olundu

2012-ci ildə Avropa Olimpiya Komitəsi tərəfindən tarixdə I Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi haqqında qərarın qəbul edilməsi də Azərbaycanın Olimpiya hərəkatına verdiyi dəyərli töhfələrin, Bakıda Olimpiya oyunlarını təşkil etmək imkanına malik idman infrastrukturunun mövcud olması demək idi. Bu qərar Avropa Olimpiya Komitəsinin Romada keçirilən 41-ci Baş Assambleyasında qəbul edilmişdir. Həmin tədbirdə MOK-un Beynəlxalq Münasibətlər İdarəsinin rəhbəri kimi mən də iştirak edirdim. Sevincimizin həddi-hüdudu yox idi. Çünki dövlətimizin başçısı, Azərbaycan Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə idmanın inkişafı istiqamətində görülən işlər öz bəhrəsini vermişdi və tarixdə ilk Avropa Oyunlarının keçirilməsi Azərbaycana həvalə olunmuşdu.

Baş Assambleyada Bakı şəhərinin və onun idman salonlarının təqdimatı oldu. Azərbaycan tarixinin həlledici idman səhifələrindən biri hesab edilən ölkəmizin xüsusi təqdimatında çıxış etmək mənə də nəsib olmuşdur. Təqdimat zamanı ölkəmizdə bərqərar olmuş iqtisadi və siyasi sabitlik, inkişaf barədə məlumat vermiş, respublikamızın beynəlxalq yarışların keçirilməsində böyük təcrübəsinin olduğunu, Bakıda mükəmməl idman infrastrukturunun yaradıldığını və ilk dəfə keçiriləcək Avropa Oyunlarının yüksək səviyyədə təşkil ediləcəyini bildirmişdim.

Xatırladım ki, 2013-2015-ci illərdə müxtəlif ölkələrdə I Avropa Oyunlarının təqdimatları keçirilmişdi. Həmin təqdimatlarda yalnız Avropa Olimpiya Oyunları təqdim edilmirdi. Həm də Azərbaycan həqiqətləri, ölkəmizin inkişafı, turizm imkanları, o cümlədən torpaqlarımızın işğal altında olması faktı dünya ictimaiyyətinin diqqətinə çatdırılırdı. Bu təqdimatların hər birində xarici ölkələrin idman ictimaiyyətinin gəldiyi ortaq rəy ondan ibarət olurdu ki, Azərbaycan ilk Avropa Oyunlarını yüksək səviyyədə təşkil edəcək. Başqa cür ola da bilməzdi. Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi təşkilat komitəsi hazırlıq işlərini ən mükəmməl səviyyədə həyata keçirmişdi. Bütün Avropa və dünya Azərbaycanın timsalında beynəlxalq idman yarışına ideal evsahibliyin nümunəsini görürdü.

Qeyd edim ki, hələ 10 il əvvəl Azərbaycanda ən möhtəşəm idman yarışlarının keçirilməsi üçün böyük infrastruktur mövcud idi. Sonrakı illərdə isə onların sırasına Bakı Olimpiya Stadionu, Milli Su İdman Növləri Mərkəzi, "Bakı Kristal Zalı", Milli Gimnastika Mərkəzi, Bakı Sərgi Mərkəzi və digər böyük idman salonları da əlavə olundu. Möhtərəm İlham Əliyevin diqqəti və nəzarəti altında inşa olunan yeni idman kompleksləri Bakının yeni və gözəl ünvanlarına çevrilməklə yanaşı, respublikamızın olimpiya və beynəlxalq idman hərəkatındakı iştirakına layiqli töhfələr verdi, olimpiya ideallarının kütləviləşməsində əhəmiyyətli rol oynadı.

Bu cür mükəmməl və çoxnövlü idman infrastrukturu ilk Avropa Oyunlarında olduğu kimi, IV İslam Həmrəyliyi Oyunlarında da Azərbaycana yüksək səviyyədə evsahibliyi etmək imkanı verdi. Bütün müsəlman aləminin təmsil olunduğu bu beynəlxalq idman yarışına da Azərbaycanın evsahibliyi etməsi ölkəmizə göstərilən böyük etimadın təcəssümü idi. Həmin etimadı doğrultmaq üçün mən də birinci xanım Mehriban Əliyevanın müdrik rəhbərliyi və mənəvi dəstəyi altında uzun müddət idman sahəsində uğurla xidmət etmiş, Avropa Oyunları və İslam Həmrəylik Oyunları kimi bir sıra mötəbər beynəlxalq tədbirlərin layiqincə reallaşmasında əlimdən gələni əsirgəməmişəm. "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin katibi, İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyə Komitəsinin, eləcə də Koordinasiya Şurasının üzvü, Əməliyyat Komitəsində MOK-lararası Əlaqələr İdarəsinin rəhbəri kimi oyunlar zamanı ölkəmizin gücü ilə qürur hissi keçirmişəm. Cənab Prezidentin xüsusi diqqəti, birinci xanımın bilavasitə rəhbərliyi ilə həyata keçirilən hazırlıq işlərinin nəticəsi olaraq IV İslam Həmrəyliyi Oyunları da Azərbaycanın növbəti uğuru kimi tariximizə həkk olundu. İlk Avropa Oyunlarının ardınca ölkəmizdə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi Azərbaycanın həm də tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi kimi tarixə düşdü.

"Bakı-2015"-də qazanılan təcrübə və sərgilənən təşkilatçılıq işi IV İslam Həmrəyliyi Oyunlarında da mükəmməl şəkildə təmin olundu. Ən əsası, bir daha sübut olundu ki, iradə və qətiyyət olan yerdə hər şey mümkündür. Məhz rəhbərliyin bizə göstərdiyi daimi mənəvi dəstək, aşıladığı ruh yüksəkliyi və qayğı hər birimizi işimizə daha da məsuliyyət və qətiyyətlə yanaşmağa həvəsləndirir, dövlətimizi, vətənimizi və millətimizi layiqincə təmsil etmək amalına kökləyirdi. Gənc yaşlarımda mənə göstərilən etimadları doğrultmaq ikiqat məsuliyyət tələb edirdi. Bu illər ərzində gecə-gündüz çalışaraq vətənimə xidmət etmək, uğurlu nəticə qazanmaq mənim əsas amalım idi. Qürurla vurğulamalıyam ki, idman sahəsində keçirdiyim o şərəfli və bir o qədər də öyrədici günlər mənim həyat yolumda sönməz bir çıraq olaraq peşəkar və şəxsi inkişafımda dərin bir iz buraxıb. Həm də onun nəticəsidir ki, bu gün bütün gücüm ilə daim millətimə qulluq etməyə və vətəndaşlıq borcumu məsuliyyətlə yerinə yetirməyə çalışmaqda davam edirəm.

Onu da qeyd edim ki, həm I Avropa Oyunlarının, həm IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi gələcəkdə Yay Olimpiya Oyunlarının ölkəmizdə təşkili üçün də gözəl zəmin yaradır. Beynəlxalq idman təşkilatlarının Azərbaycanla bağlı indiyədək yeganə narahatçılığı ölkəmizdə kompleks yarış təcrübəsinin olmamasına dair fikir idi. I Avropa və IV İslam Həmrəyliyi Oyunlarından sonra bu narahatçılıq tamamilə aradan qalxdı.

Bütün bu məsələlər barədə söz açarkən vaxtsız vəfatı ilə hamımızın qəlbində dərin kədər hissi yaradan Azad Rəhimovun xatirəsini yad etməmək mümkün deyildir. Onun vəfatı ilə idman ictimaiyyəti gözəl, safqəlbli insanı, peşəkar idman təşkilatçısını itirdi.

## Bakı "Formula-1" və futbol bayramı ərəfəsindədir

2019-cu ilin sonunda bütün ölkələri çənginə alan pandemiyaya qarşı beynəlxalq mübarizə artıq müsbət nəticələrini verməkdədir. Bu səbəbdən dünyanın idman həyatında da canlanma yaranıb. Ötən il koronavirus pandemiyası səbəbindən keçirilməsi mümkün olmayan idman tədbirlərinə artıq yenidən start verilir. Paytaxtımız Bakı da "Formula-1" yarışları və futbol bayramı ərəfəsindədir.

Bakı "Formula-1" yarışlarına 2016-cı ildən evsahibliyi edir. Obrazlı ifadə etsək, "Formula-1"in yeni ünvanlarından olan Bakı indi həm də dünyanın sürət paytaxtıdır. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası "Formula-1" təqviminə ən yeni əlavədir. Dünyada bu yarışı təqribən 500 milyondan artıq tamaşaçı izləyir. Bu göstərici ilə "Formula-1" tamaşaçı sayının çoxluğuna görə futboldan sonra ikincidir. Ona görə belə mötəbər avtomobil yarışının Azərbaycanda keçirilməsi olduqca əhəmiyyətlidir.

Futbol üzrə Avropa çempionatının oyunlarına gəldikdə isə 4 görüşün Bakıda keçirilməsi Azərbaycana göstərilən böyük etimaddır. Azərbaycanda beynəlxalq futbol çempionatlarının keçirilməsi üzrə kifayət qədər böyük təcrübə var. Respublikamızı beynəlxalq arenada layiqincə təmsil edən "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasına vəsiqə qazanması ilə əlaqədar bir neçə il əvvəl Bakı Olimpiya Stadionu UEFA Çempionlar Liqasının oyunlarına evsahibliyi etmişdi. 2019-cu il mayın 29-da isə Bakı Olimpiya Stadionunda İngiltərənin Çelsi və Arsenal futbol klubları arasında UEFA Avropa Liqasının final oyunu keçirilmişdir. İndi isə Bakı ən mötəbər futbol turnirlərindən biri olan Avropa çempionatının oyunlarına evsahibliyi edir. Bu futbol bayramının sevincini bizim üçün ikiqat artıran isə qardaş Türkiyənin yığma komandasının qrup oyunlarını Bakıda keçirməsidir.

Beləliklə, iyun ayı ərzində dünyanın idman nəbzi həm də Azərbaycanla döyünəcək. Beynəlxalq idman ictimaiyyəti və ölkəmizə təşrif gətirən xarici qonaqlar bir daha Azərbaycanın nümunəvi evsahibliyinin canlı şahidi olacaqlar. Bu idman yarışlarının hər biri izləyicilərə uzun müddət xatırlanacaq həyəcanlı və sevincli anlar bəxş edəcək. Başqa cür ola da bilməz. Çünki bu yarışların təşkilatçısı mötəbər idman turnirlərinin keçirildiyi əsas ünvanlardan olan və dünyada idman dövləti kimi tanınan Azərbaycandır.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***



# Bakı "Formula-1"in 5-ci zirvəsini fəth edir

## Azərbaycan növbəti dəfə dünya idman ictimaiyyətinin diqqət mərkəzindədir

Ölkəmizin paytaxtı yenidən möhtəşəm turnirin astanasındadır. Bakı indiyədək ardıcıl olaraq dörd dəfə "Formula-1" Qran-prisinə evsahibliyi etmişdir. Planetin ən güclü pilotları birillik fasilədən sonra yenidən Bakıda toplaşırlar.

Cari ayın 4-6-da keçiriləcək "Formula-1" Azərbaycan Qran-prisi koronavirus pandemiyası başlayandan sonra paytaxtımızın evsahibliyi edəcəyi ilk irimiqyaslı idman tədbiri olacaq.

### 6 kilometrlik 51 dövrə

Cari mövsümün 6-cı mərhələsində iyunun 4-5-də pilotların sərbəst yürüşləri və sıralama turları keçiriləcək. İyunun 6-da isə möhtəşəm Azərbaycan Qran-prisinə (51 dövrə və ya 120 dəqiqə) start veriləcək. Digər Qran-prilərdə olduğu kimi, Bakıda yarışacaq komandalar da reqlamentə əsasən əvvəlcə iki sərbəst yürüşdə trasla tanış olacaq, maşınları yarışa hazır vəziyyətə gətirəcək.

İyunun 5-də səhər pilotlar bir saat məşq keçəcəklər. Adətən nahardan sonra sıralanma turu və ya təsnifat mərhələsi təşkil olunur. Bu turun yekun nəticələrinə görə pilotların yarışda start düzümü formalaşır.

İyunun 6-da sayca 5-ci Azərbaycan Qran-prisinin yarış günüdür. Yarışanlar bir gün əvvəlki sıralanma turunun nəticələrinə görə startda yerlərini tuturlar. Əvvəlcə sürücülər trasda bir dövrə vuraraq təkərləri və əyləcləri qızdırır, dövrənin tamamında yenidən start yerlərini tuturlar. 5 qırmızı işığın sönməsindən sonra həyəcan başlayır.

### Yeniliklərlə yadda qalan Azərbaycan Qran-prisi

"Formula-1" yarışlarının Azərbaycanın paytaxtında keçirilməsi ilə bağlı FOM (Formula One Management) ilə danışıqlar 2013-cü ildə başlamış və 2014-cü ilin martında ilkin müqavilə imzalanmışdır. Azərbaycanda Qran-prinin təşkili ilə dövlət səviyyəsində məşğul olublar. Bu da layihənin statusunu və onun ölkə üçün əhəmiyyətini göstərir.

İlk dəfə 2016-cı ildə paytaxtımızda keçirilən "Formula-1" Avropa Qran-prisinin Bakı mərhələsi yeniliklə yadda qalmışdı. Bu, sıralama turları ilə bağlıdır. Əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırıldı. 10 pilot 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start verirdi. Yeni qaydaya görə isə seansın sonunda yox, 90 saniyədənbir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulub.

"Formula-1" mütəxəssislərinin rəylərinə görə, bu yenilik yarışın həyəcanını bir qədər də artırır. "Formula-1"in dünyada kifayət qədər azarkeşləri olduğunu nəzərə alsaq, Bakı Şəhər Halqasında pandemiya ilə əlaqədar olaraq tamaşaçılar yarışı canlı yerində izləyə bilməyəcəklər. Ancaq onu da xüsusi olaraq qeyd edək ki, quraşdırılan tribunalar elə yüksək səviyyədə hazırlanıb ki, daim istifadədə olsa belə dağılıb sıradan çıxmır.

Bu mötəbər yarışın yüksək səviyyədə KİV-də işıqlandırılmasına təcrübəli müxbirlər və fotomüxbirlər cəlb edilmişlər. Beləliklə, dünyanın ən böyük media orqanları, eləcə də yerli KİV Bakıda keçiriləcək "Formula-1" yarışı barədə xəbərləri dünyaya yayacaqlar.

### Qürur hissi doğuran yüksək səviyyəli evsahibliyi

Məlumdur ki, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları həmişə həlledici rol oynayır. Bir çox ölkələr beynəlxalq tədbirləri təşkil etmək üçün rəqabət aparır, yarış və tədbirlərin evsahibləri 5-10 il sonra üçün belə müəyyən olunur.

Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması belə tədbirləri təşkil etmək imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Azərbaycan bir çox beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə evsahibliyi edib. Bunlara "Eurovision" musiqi yarışı, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və "Formula-1" Qran-prisini misal göstərmək olar.

Bu irimiqyaslı tədbirlərin keçirilməsinin ölkəmizə həvalə edilməsi təsadüfi deyil. Bu, ilk növbədə Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzdan qaynaqlanır. Eyni zamanda belə tədbirlər ölkəmizə, dövlətimizə müəyyən dividendlər gətirir.

***"Azərbaycan"***

# Azərbaycan Qran-prisində pilotları gərgin və maraqlı mübarizə gözləyir

İyunun 4-6-da Bakı növbəti dəfə dünyanın ən populyar idman tədbirlərindən biri olan "Formula-1" yarışlarına evsahibliyi edəcək. Bunun üçün paytaxtın mərkəzi küçələrində həyata keçirilən hazırlıq işləri başa çatıb.

Əminliklə söyləmək olar ki, cari mövsümün 6-cı mərhələsi olan Azərbaycan Qran-prisində sürət həvəskarlarını möhtəşəm yarış gözləyir. Yarışların keçirildiyi şəhər treki Bakı Şəhər Halqası (BŞH) adlanır və uzunluğuna görə dünyada ikincidir. Yarış 20 müxtəlif çətinlikli döngəsi və 6 kilometrlik uzunluğu ilə 51 dövrədə tamamlanacaq.

Bakı Şəhər Halqası şəhərin tam mərkəzindən və ən gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqamı qarşıya məqsəd qoyublar. "Formula-1" Azərbaycan Qran-prisi "Azadlıq" meydanından start götürəcək və burada da başa çatacaq. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində olacaq. Trekin birinci və üçüncü döngəsi pilotlara ötmə üçün əla şərait yaradacaq. Şəhər treklərində çox nadir hallarda iki uzun sürətlənmə xətti görmək olar. Üçüncü döngədən sonra pilotlar sol tərəfə - Bülbül prospektinə doğru yol alacaqlar. Onlar təxminən 240 metrlik məsafəni düz keçdikdən sonra 90 dərəcəli sağ döngə ilə qarşılaşacaqlar. Burada pilotlar Zərifə Əliyeva küçəsinə dönəcək və kiçik bucaqlı döngədən sonra 350 metr uzunluğunda məsafə qət edəcəklər.

5-ci və 6-cı döngələr pilotları Neftçilər prospektinin əks istiqamətindəki yola yönəldəcək. Bura trekin iki fərqli hissəsinin yan-yana olduğu bölmədir. Təxminən 300 metr məsafədə "Formula-1" bolidləri eyni küçədə əks istiqamətlərdə hərəkət edəcəklər, onları yalnız baryerlər ayıracaq.

7-ci döngədən sonra pilotlar Əziz Əliyev küçəsi ilə İçərişəhərin qala divarlarına tərəf yönələcəklər. Bu yolda trek qismən səki hesabına genişləndirilib. Burada bolidlər 500 metrə yaxın məsafəni ensiz küçələrdə qət edəcəklər.

Trekin 8-ci döngəsindən 12-ci döngəsinədək olan hissəsində yarış çox maraqlı anlarla yadda qalacaq. Çünki burada yol daralıb və yalnız ən sürətlə hərəkət edən bolid birinci keçəcək. 12-ci döngədən 15-ci döngəyə qədər olan hissədə, İstiqlaliyyət küçəsində bolidlər yüksək sürətlə hərəkət edəcəklər. 13-cü və 14-cü döngələr kiçik bucaqlı olduğundan buradan pilotlar, demək olar ki, əyləc sistemindən istifadə etmədən keçəcəklər. Bu küçədə pilotları Milli Elmlər Akademiyasının binası, sonra isə 15-ci döngədə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası qarşılayacaq.

12-ci döngədən 15-ci döngəyədək olan məsafə 850 metrdir. 15-ci döngəyə yaxınlaşdıqca yarışın həyəcanı daha da artacaq. Çünki bu döngədən sonra pilotları kəskin eniş gözləyir. Bu enişdə Xəzər dənizinin sahilboyu ərazilərinə tərəf gözəl mənzərə açılır. Burada 300 metr uzunluğunda ikinci xüsusi asfalt örtüyü salınıb. Trekin 16-cı döngədən düz xətt boyunca davam edən hissəsində yarışın möhtəşəm keçəcəyi gözlənilir, çünki burada sürət maksimal həddə çatacaq. Bu döngə pilotları yenidən Neftçilər prospektinə yönəldəcək.

Pilotlar yalnız 17-ci və 18-ci döngələrdə sürəti bir az azaldacaqlar. Qız qalasının yanındakı 19-cu döngədən sonra pilotlar 1500 metr məsafə qət edərək 20-ci və daha sonra yenidən 1-ci döngəyə gəlib çatacaqlar. Trekin məhz bu hissələrində bolidlərin sürətinin ən yüksək həddə - 340 km/saata çatacağı gözlənilir.

Əlavə edək ki, Bakıda trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi İçərişəhər ətrafında, 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edəcək. "Azadlıq" meydanı yarışın başlayıb bitdiyi yer olduğu üçün trekin əsas hissəsini təşkil edəcək. Burada inşa olunan Paddok arenasında yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, "Formula-1" rəhbərliyinin ofisləri, eləcə də 21 iştirakçının hər biri üçün dayanacaq tikilib. İkinci mərtəbə Paddok klubun üzvləri üçün nəzərdə tutulub. Onlar yarışı 2500-dək izləyici tutumuna malik məkandan izləyəcəklər. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını da rahatlıqla izləyə biləcəklər. Məhz bu ərazidə yarışın startı və finişi olacaq. Qaliblər isə pit binasının podium hissəsində mükafatlandırılacaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azercell" 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid övladları üçün sosial layihə həyata keçirib






"Azercell"in dəstəyi ilə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Kiçik Ürəklərdə Böyük Xatirələr" adlı sosial layihə çərçivəsində 300-dən çox şəhid övladına anaları ilə birgə onlayn təlimlər keçirilib.

44 günlük Vətən müharibəsində torpaqların azadlığı uğrunda canından keçən cəsur hərbçilərin ailə üzvləri üçün art terapiya yolu ilə psixoloji təlimlər təşkil olunub. "Arzular ağacı" təlimləri mərhələsində uşaqlara və onların valideynlərinə psixoloji yardım göstərilib. Peşəkar psixoloqlar onlara emosional problemlərinin öhdəsindən gəlməyə kömək ediblər. "Azercell"in "GİD CSR Consulting" şirkəti ilə birgə əməkdaşlığı çərçivəsində baş tutan "Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsinin növbəti mərhələsi kimi isə təlimlərdə qonaq qismində tanınmış şəxslərin iştirakı nəzərdə tutulub. Onlar öz uğur hekayələrini bölüşməklə bu yolda üzləşdikləri çətinliklərin öhdəsindən necə gəldikləri barədə danışıblar.

Təlimlər zamanı böyük psixoloji stress keçirmiş uşaq və valideynlərin emosional durumu üzə çıxarılıb, onların yaşadıqlarını sənət yolu ilə ifadə etməsinə imkan yaradılıb. Uşaqlar rəsm sənət növündən istifadə edərək hisslərini kağız üzərinə köçürüblər. Həm uşaqlar, həm də böyüklər üçün faydalı olan art terapiya uşaqların daxili dünyasını açmağa, həm də gizli bacarıqlarını üzə çıxarmağa yardımçı olub.

"Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsi çərçivəsində keçirilən görüşlər zamanı şəhid övladları qəhrəman ataları haqqında xatirələrini səsləndiriblər. Layihənin yekunu olaraq tezliklə uşaqların qəhrəman ataları haqqında ən gözəl xatirələrindən ibarət kitab həm rəqəmsal, həm də çap formatda hazırlanıb nəşr ediləcək. Kitabın elektron versiyasını "Bookmate" mobil tətbiqindən də oxumaq mümkün olacaq.

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə keçirilən tədbir çərçivəsindədə "Azercell" şirkəti Aprel döyüşləri şəhidlərinin və telekommunikasiya sahəsində çalışmış, II Qarabağ müharibəsində Vətən uğrunda həyatını qurban etmiş şəhidlərin övladlarını təbrik edib, hədiyyələr verib.

# DSX-nin hərbi hissə və bölmələrində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə tədbirlər keçirilib

Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi hissə və bölmələrində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə tədbirlər keçirilib.




DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, sərhəd mühafizə qurumlarının hərbi qulluqçularının və mülki işçilərinin ailə üzvlərinin qatıldıqları tədbirlər Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, iştirakçılar bayram münasibətilə təbrik ediliblər.

Tədbirdə çıxış edənlər zəngin milli-mənəvi dəyərlərə malik xalqımızın uşaqlara hər zaman qayğı və məhəbbətlə yanaşdığını, uşaqların əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılmasının, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasının dövlət uşaq siyasətinin prioritet istiqamətlərindən olmasını vurğulayıblar. Həmçinin cəmiyyətimizin gələcəyi olan uşaqların yüksək mənəvi-əxlaqi xüsusiyyətləri, intellektual qabiliyyətləri ilə həm həyatda layiqli yer tutacaqlarına, həm də ölkəmizin inkişafına töhfə verəcəklərinə əminlik ifadə olunub. Tədbirlər çərçivəsində ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində şəhid olmuş Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının övladları ziyarət edilib, onlara hədiyyələr təqdim olunub. Bayram şənliklərində uşaqların ifa etdiyi şeir və mahnı nümunələri, rəqs nömrələri iştirakçılar tərəfindən maraqla qarşılanıb. Cizgi film personajlarının, nağıl qəhrəmanlarının çıxışları uşaqların bayram ovqatını artırıb.

***"Azərbaycan"***

# FHN-in Gəncə Regional Mərkəzi "Açıq qapı günü" keçirib





Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə iyunun 1-də Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən FHN işçilərinin Həmkarlar İttifaqının dəstəyi ilə Gəncə Regional Mərkəzində Vətən müharibəsində Gəncə şəhərindən olan şəhid övladları üçün "Açıq qapı günü" keçirilib.

Tədbirdə FHN Akademiyasının rəisi general-mayor Baba Salayev, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov, nazirliyin Regional Mərkəzinin rəisi polkovnik Asif Məmmədli, Gəncə Şəhər İcra Hakimiyyətinin, Gəncə Şəhər Təhsil Şöbəsinin məsul əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirin açılışında Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. "Açıq qapı günü"ndə uşaqlara nazirliyin Gəncə Regional Mərkəzinin xilasedicilәri və Dövlət Yanğından Mühafizə Xidmətinin yanğınsöndürənləri tərəfindən yanğınsöndürmə və xilasetmə texnikası və avadanlıqları təqdim olunub.

Daha sonra uşaqlar nazirliyin psixoloqları tərəfindən təşkil olunmuş intellektual oyun və qrup yarışlarına cəlb olunublar. Tədbir asfalt üzərində rəsm yarışması ilə davam edib.

Sonda uşaqlara hədiyyələr təqdim olunub.

# Sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam edir

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzinin məlumatına görə, dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Son günlərdə Dövlət Sərhəd Xidməti əməkdaşlarının sayıqlığı nəticəsində təxmini çəkisi 12 kiloqram 754 qram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınmışdır.

May ayının 22-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzüli rayonunun Horadiz qəsəbəsinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası ərazisinə hərəkət edən 1 nəfər naməlum şəxsin dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən müşahidə edilmişdir. Sərhəd naryadının "dayan" əmrinə tabe olmayan sərhəd pozucusu ərazidən qaçmağa çalışarkən saxlanılmışdır.

Saxlanılan şəxsin İran vətəndaşı 1978-ci il təvəllüdlü Ziyarəti Cavid Xeyrulla oğlu olması müəyyənləşdirilmiş, əlindəki bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 2 kiloqram 964 qram narkotik vasitə (2950 qram qurudulmuş "marixuana" və 14 qram 283 ədəd maye şəklində "mydrax") aşkar olunaraq götürülmüşdür.

May ayının 24-də Dövlət Sərhəd Xidmətinin və Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat-təhqiqat idarəsinin əməkdaşlarının keçirdiyi birgə əməliyyat-axtarış tədbirləri nəticəsində Beyləqan rayonunun Birinci Şahsevən kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində 1 ədəd sahibsiz bağlamanın içərisində 5 kiloqram 480 qram narkotik vasitə (2065 qram "marixuana", 1710 qram "heroin" və 1620 qram "metamfetamin") aşkarlanaraq götürülmüşdür.

Növbəti gün Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Amankənd kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sərhəd naryadı tərəfindən sərhədboyu zolağa baxış keçirilərkən aşkarlanmış 1 ədəd qara rəngli bağlamanın içərisindən 4 kiloqram 310 qram narkotik vasitə (679 qram "heroin", 577 qram "metamfetamin", 3054 qram qurudulmuş "marixuana") götürülmüşdür.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.


## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti

Qarabağ Regional Elektrik Şəbəkəsinin İnzibati və yardımçı təsərrüfat binalarının inşası işləri, 110/35/6 kV-luq Qala Yarımstansiyasının 220/110/35/10/6 kV-luq YS-ya çevirməklə yenidən qurulması və istismara verilməsi işləri, 110/20/6 kV-luq "Ramana" YS-nı 110/35/6 kV yarımstansiyaya çevirməklə yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması məqsədilə

***açıq tender elan edir***

**Tender 3 (üç) LOT üzrə keçirilir:**

**LOT - 1.** Qarabağ Regional Elektrik Şəbəkəsinin İnzibati və yardımçı təsərrüfat binalarının inşası işlərinin satın alınması üzrə iştirak haqqı - **1 000 (bir min) manat**

**LOT - 2.** 110/35/6 kV-luq Qala Yarımstansiyasının 220/110/35/10/6 kV-luq YS-ya çevirməklə yenidənqurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - **2 000 (iki min) manat**

**LOT - 3.** 110/20/6 kV-luq "Ramana" YS-nı 110/35/6 kV yarımstansiyaya çevirməklə yenidənqurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - **2 000 (iki min) manat**

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

hesabına köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanında yerləşən "Azərenerji" ASC-nin inzibati binasındakı "Tender və müqavilə" şöbəsindən ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56.

**LOT - 1.** Qarabağ Regional Elektrik Şəbəkəsinin İnzibati və yardımçı təsərrüfat binalarının inşası işlərinin satın alınması üzrə iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçı şirkət ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyalarının, yarımstansiyaların yenidənqurma, restavrasiya, başqa layihələrin layihələndirmə və tikintisi işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq **15 000 000 (on beş milyon manat)** AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin elektrik stansiyalarının, yarımstansiyaların yenidənqurma, restavrasiya, tikinti işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər( tərcümeyi halları);*
- *iddiaçı Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

**LOT - 2.** 110/35/6 kV-luq Qala Yarımstansiyasının 220/110/35/10/6 kV-luq YS-ya çevirməklə yenidənqurulması və istismara verilməsi və **LOT - 3.** 110/20/6 kV-luq "Ramana" YS-nı 110/35/6 kV yarımstansiyaya çevirməklə yenidən qurulması və istismara verilməsi işlərinin satın alınmas üzrə iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyalarının, yarımstansiyaların, elektrik istehsalı işlər üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq **30 000 000 (otuz milyon manat)** AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podraçıya təqdim elədiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyalarında enerji istehsalı ilə bağlı işlər üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər( tərcümeyi halları).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06 iyul 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifi isə **15 iyul 2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanında "Tender və müqavilə" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **16 iyul 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (online qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının qlobal səhiyyə sahəsində səylərini dəstəkləyir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edildiyini, ölkəmizdə COVID xəstələrinin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayı 10 mindən artıq olduğunu bildirib: "Bununla yanaşı, COVID-in mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edilmişdir".

